Qeyri rəsmi tərcümə

TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASININ BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR MİSSİYASI

Növbədənkənar parlament seçkiləri
Azərbaycan Respublikası, 9 fevral, 2020-ci il

RƏY

Azərbaycan Respublikası Milli Məclisinin dəvəti ilə TÜRKPA Beynəlxalq Müşahidəçilər Missiyası (*bundan sonra Missiya*) 9 fevral 2020-ci il tarixində Azərbaycan Respublikasında keçirilən növbədənkənar parlament seçkilərinin qısamüddətli müşahidəsini həyata keçirmişdir. Missiyasının tərkibinə üzv ölkələr olan Qırğızıstan, Qazaxıstan, Türkiyə parlamentlərinin üzvləri və TÜRKPA Katibliyinin diplomatik heyəti daxil olmuşdur.

Missiyanın proqramı Xarici İşlər Nazirliyi və Mərkəzi Seçki Komissiyasının (MSK) rəsmiləri ilə görüşlərdən, həmçinin seçki günü səsvermə prosesinin müşahidəsindən ibarət olmuşdur.

Parlament seçkiləri ilk növbədə Konstitusiya və Seçki Məcəlləsi ilə tənzimlənir. Konstitusiya gizli səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququna zəmanət verir. Seçki prosesinə həmçinin "Kütləvi İnformasiya Vasitələri haqqında" Qanun, "Kütləvi Tədbirlər haqqında" Qanun, Cinayət Məcəlləsinin müvafiq müddəaları, İnzibati Xətalar Məcəlləsi, Mülki Prosessual Məcəllə və Mərkəzi Seçki Komissiyasının qərarları ilə təmzilənir. Azərbaycan demokratik seçkilərin keçirilməsi istiqamətində əsas beynəlxalq və regional sənədlərə tərəfdaşdır.

Milli qanunvericilik Seçki Məcəlləsi ilə yanaşı "Televiziya və Radio Yayımı haqqında" Qanuna uyğun olaraq namizədlərin azad və bərabər şəkildə media yayımını təmin edir. Kütləvi informasiya vasitələri qərəzsizlik, düzgünlük və dəqiqlik prinsiplərinə əsaslanan seçkiqabağı təşviqatın işıqlandırılmasını təmin edir. Namizədlərə təşviqat işlərinin kütləvi

informasiya vasitələri ilə aparılması və seçicilərlə görüşlərin keçirilməsi üçün bərabər şərait yaradılmışdır.

MSK Sədri cənab Məzahir Pənahovla görüş zamanı Missiya üzvlərinə qanun və nizamnamələrin hazırlanması, aşağı səviyyəli kommissiyalar və hüquq-mühafizə orqanları üçün treninqlərin təşkil edilməsi, seçici və namizədlərin qeydiyyatı və şikayətlərə baxılması kimi məsələlərin daxil olduğu seçki hazırlıqları haqqında məlumat verilmişdir. MSK Sədri həmçinin 5, 329461 mln. seçicinin qeydiyyatdan keçdiyi haqqında məlumat vermiş, həmçinin onların istədiyi zaman MSK-nın veb saytı, telefon və ya məntəqə seçki kommissiyalarına təhkim olunmuş şəxslər vasitəsilə qeydiyyatına nəzarət edə biləcəyini bildirmişdir. MSK –da seçkilərdə iştirak edən 1321 namizəd və 19 siyasi partiya qeydə alınmışdır.

Missiya üzvləri həm paytaxt Bakıda, həm də digər bölgələrdə - Şamaxı və Qobustandakı 10 seçki məntəqələrində olmuş, səsvermə prosesini müxtəlif mərhələlərdə müşahidə etmişlər. Missiyanın yerində səslərin verilməsini izləmək, seçicilərlə və seçki məntəqələrinin rəsmiləri ilə, həmçinin digər beynəlxalq müşahidəçilərlə görüşmək imkanı olmuşdur. Missiya həmçinin Şamaxı və Qobustan şəhərlərinin yerli icra hakimiyyəti orqanlarının nümayəndələri ilə də görüşmüş, onlara aidiyyəti bölgələrdə seçki prosesi haqqında məlumat verilmişdir.

Mərkəzi Seçki Komissiyasının ilkin məlumatına görə seçicilərin fəallığı 47,81 %[1] olmuşdur (9 fevral saat 19:00 üçün olan məlumat).

Missiya, namizədlərə aktiv təşviqat aparmaq və geniş kütlə ilə ünsiyyət qurmaq imkanı yaradan sosial medianın artan rolunu qeyd edir. Nəticədə, seçicilər namizədlərin platformaları, məqsəd və vəzifələri barədə yaxşı məlumatlandırılmışdır.

Missiya, Azərbaycan hökumətinin cəmiyyətin bütün təbəqələrinin ictimai həyatda daha əhatəli təmsil olunmasına yönəlmiş təşviq tədbirləri nəticəsində qadınların və gənclərin bu seçkilərdə geniş iştirakını müşahidə etmişdir.

[1] ***Seçici fəallığındakı bu rəqəm 9 fevral tarixində, axşam saatlarında MSK tərəfindən rəsmi olaraq elan edilmişdir***

Seçicilərin fəallığı cəmiyyətin bu seçkilərə artan marağından xəbər verir. Bütün seçki prosesi şəffaf şəkildə aparılmışdır və MSK seçki prosesi ilə bağlı bütün məsələlər barədə hər zaman ictimaiyyəti məlumatlandırmışdır.

Missiya, məcburi köçkünlərə səsvermə hüquqlarının həyata keçirilməsini asanlaşdırmaq üçün Mərkəzi Seçki Komissiyası tərəfindən lazımi tədbirlərin görüldüyünü vurğulayır. Hökümətin nəzarəti altında olmayan və ya qismən nəzarəti altında olan dairələrdəki seçki məntəqələri məcburi köçkünlərin yaşadıqları ölkə ərazilərinə köçürülmüşdür. Bu seçkilər üçün, 573 seçki məntəqəsi olan 10 DSK məcburi köçkünlərə xidmət göstərmişdir.

Missiya qanun çərçivəsində heç bir ciddi pozuntu müşahidə etməmişdir və seçki proseduru Azərbaycanın milli qanunvericiliyinə və beynəlxalq öhdəliklərinə uyğun idarə edilmişdir. Missiya, bütün seçki idarəetmə orqanlarının yaxşı təchizatlandığını və seçkilərin keçirilməsinə peşəkarlıqla hazırlandığını diqqətə çatdırmışdır. 2018-ci il prezident seçkilərində olduğu kimi, seçki məntəqələrində veb-kameraların quraşdırılması və fiziki qüsurlu vətəndaşlar üçün lazımi şəraitin yaradılması bu cəhətlə bağlı bariz nümunədir. Missiya, həmçinin seçki məntəqələrində Azərbaycan vətəndaşlarının yeni şəxsiyyət vəsiqələri üzərindəki çipləri oxuyan cihazların tətbiqini alqışlayır və bunu seçki idarəçiliyindəki daha bir texnoloji inkişaf kimi qiymətləndirir.

Azərbaycanda keçirilən seçkilərin beynəlxalq müşahidəsi üçün bütün hüquqi və maddi-texniki şərait təmin edilmişdir. Missiya müvafiq beynəlxalq sənədlərlə təsdiq edilmiş obyektivlik, ədalətlilik, şəffaflıq və qərəzsizlik prinsiplərinə riayət etmişdir.

Missiyasının gəldiyi nəticəyə görə, 9 fevral 2020-ci il tarixində Azərbaycan Respublikasında keçirilən növbədənkənar parlament seçkiləri Azərbaycanın milli qanunvericiliyinə və beynəlxalq seçki standartlarına uyğun şəraitdə keçirilmişdir.